AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

*Əlyazması hüququnda*

**ELTUN YULƏT oğlu İBRAHİMOV**

# MALİYYƏ VƏ BANK SİSTEMİNİN REGİONAL İQTİSADİ İNKİŞAFIN TƏMİNATINDA ROLU (NAXÇIVAN MR TIMSALINDA)

**İxtisas: 5311.01- Müəssisələrin təşkili və idarə olunması**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# AVTOREFERATI

**NAXÇIVAN – 2017**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun "İqtisadiyyat" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Zahid Fərrux oğlu Məmmədov**
İqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Əli Xudu oğlu Nuriyev**
AMEA-nın müxbir üzvü, iqtisad üzrə elmlər doktoru, professor

**Aləm Məhərrəm oğlu Bağırov**
İqtisad üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Naxçıvan Dövlət Universitetinin "İqtisadiyyat" və "Muhasibat uçotu və Maliyyə" kafedraları**

Müdafiə 28 oktyabr 2017-ci il saat "___" AMEA Naxçıvan Bölməsinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya işi ilə AMEA Naxçıvan Bölməsinin elektron kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" sentyabr 2017-ci il tarixində göndərilmişdir.

**D.01.211 Dissertasiya Şurasının elmi katibi:** **dosent E.A.Şıxəliyev**

## TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** İqtisadi sisteminin mühüm elementlərindən hesab olunan maliyyə və bank sistemi öz tərkibinə, strukturuna və əhatə dairəsinə görə olduqca əhəmiyyətli bir sahədir. Son dövrlərdə dünya ölkələrinin bazar iqtisadiyyatı mexanizmi ilə hərəkət etməsi onların maliyyə və bank sektorunun inkişafını zəruri etmişdir. Möhkəm iqtisadi quruluşa və sürətli inkişafa nail olmaq üçün hər bir dövlət qarşısında duran əsas vəzifələrdən biri geniş və əhəmiyyətli maliyyə strukturunun, bir sözlə güclü maliyyə sisteminin yaradılmasıdır. Bu baxımdan maliyyə və bank sisteminin iqtisadi münasibətlər və regional infrastruktur şəraitində hərtərəfli tədqiq edilməsi xüsusi aktuallıq kəsb edir. Blokada vəziyyətində yaşayan Naxçıvan MR-da isə bunun öyrənilməsi olduqca əhəmiyyətli məsələlərdəndir.

Təcrübələr göstərir ki, maliyyə və bank sisteminin formalaşması iqtisadi və siyasi əlaqələri formalaşdırır, ölkənin dünya iqtisadiyyatına inteqrasiya etməsini sürətləndirir, iqtisadi, siyasi müstəqillik baxımından güclü və dinamik inkişafını təmin edir.

Cəmiyyətin mövcud olmuş bütün tarixi, sosial vəziyyətlərində iqtisadiyyatın normal fəaliyyətinin təmin edilməsi dövlət müdaxiləsini zəruri etmişdir. Dövlət bütün sahələrdə olduğu kimi ölkəni mövcud böhranlardan çıxarmaq, iqtisadi resursları qorumaq üçün müxtəlif cür tənzimləmə metodlarından istifadə edir. Iqtisadi sahədə nəşr olunmuş mühüm əsərlərin müəllifi və dövlət məsləhətçisi olan dövrün iqtisadçı alimlərindən C.Keyns iqtisadiyyatda sərbəstliyi çatışmaz cəhət kimi göstərmişdir. Keyns qeyd edir ki, dövlətin iqtisadiyyata müdaxiləsində əsas məqsəd böhranları aradan qaldırmaq, işsizlik problemini həll etmək və iqtisadi artımın səmərəliliyini yüksəltməkdən ibarətdir. O, cəmiyyətdə iqtisadi inkişafı formalaşdırmaq üçün bir sıra modelləri göstərmişdir ki, onlardan biri də dövlətin büdcə-maliyyə siyasətidir. Keynsə görə dövlət iqtisadi sistemi tənzimləmək, milli gəlirin yüksək artımına nail olmaq, məşğulluğu yüksəltmək üçün büdcə-maliyyə və maliyyə-kredit siyasətindən istifadə etməlidir.

Məhz bu baxımdan istehsalın səmərəliliyini artırmaq, xüsusilə də bölgələrdə iqtisadi fəallığa və dinamik inkişafa nail olmaq üçün dövlətin əsas tənzimedici aləti kimi maliyyə və bank sistemininin, onun ayrı-ayrı sahələrə verdiyi töhvələrin öyrənilməsi günümüzün aktual məsələlərindəndir.

Müstəqillik əldə edildikdən sonra, istər ölkəmizin, istərsə də Naxçıvanın sosial-siyasi, iqtisadi və mədəni həyatında ciddi dəyişikliklər baş vermişdir və baş verməkdədir. Totalitar rejim şəraitində illərlə çətin vəziyyətdə yaşamış

respublikamız üçün iqtisadiyyatın bütün sahələrində gedən proseslər olduqca əhəmiyyət daşıyırdı. Köhnə dövrün qalıqları, müstəqil maliyyə və bank sisteminin olmaması, bank sistemində saysız-hesabsız problemlər, maliyyə fırıldaqçıları, iqtisadi asılılıq yeni qurulmuş dövlətimiz üçün böyük çətinliklər yaradırdı. Bu isə maliyyə və bank sistemində ciddi struktur dəyişikliklərin həyata keçirilməsini zəruri edirdi. Bu baxımdan iqtisadi sahədə xüsusən də maliyyə və bank sahəsində qanunvericilik təkmilləşdirildi. Reallaşdırılan islahatlar nəticəsində müstəqillik qazandıqdan günümüzə qədər ayrı-ayrı mərhələlərdə mərkəzi bankın müstəqilliyinin təmin olunması, xəzinədarlıq sisteminə keçid, zəruri qızıl-valyuta ehtiyatlarının formalaşdırılması, valyuta ticarətinin sərbəstləşdirilməsi, manatın dönərliliyinin təmin olunması və s. məsələlər öz həllini tapdı[1]. Mərkəzi Bankın, xeyli sayda bank qurumlarının və kredit təşkilatlarının yaradılması, onlara uyğun qanunların (Mərkəzi Bank və, banklar haqqında Azərbaycan Respublikasının qanunları) qəbul edilməsi mühüm istiqamətlər kimi hesab olunmalıdır. Buna görə də müstəqillik əldə olunan dövrdən bu dövrədək maliyyə siyasətində və maliyyə resurslarının düzgün istiqamətlərə yönəldilməsində baş verən bütün proseslər ciddi təhlil tələb edir, xüsusən də Naxçıvan MR-da maliyyə və bank sisteminin yaranması, inkişafı, hazırki vəziyyəti, regional problemlərin həll olunmasında rolu və gələcək istiqamətlərinin hərtərəfli öyrənilməsi əhəmiyyətli məsələlərdəndir.

Ölkəmizin prezidenti İlham Əliyev bölgələrə səfərlərində və çıxışlarında vurğulamışdır ki: "Ölkəmizin inkişafı, eyni zamanda, bölgələrin inkişafından keçir. Dövlətimiz üçün ən vacib məsələlərdən biri iqtisadiyyatda dayanıqlı və hərtərəfli inkişafa nail olmaq, vətəndaşlarımızın həyat səviyyəsini yüksəltməkdən ibarətdir. Azərbaycan Respublikası regionların inkişafında müşahidə olunan vəziyyət mövcud potensialdan səmərəli istifadə etməklə regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsini və onlar arasındakı fərqin minimuma çatdırılmasını tələb edir. Bu baxımdan 2004-2008-ci illəri, 2009-2013-cü illəri və 2014-2018-ci illəri əhatə edən" Regionların sosial-iqtisadi inkişafı" Dövlət Proqramları qəbul olunmuşdur. Dövlət Proqramında bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bunların sırasında kənd təsərrüfatı məhsullarının emalı, müəssisələrin istehsal fəaliyyətinin bərpa edilməsi, yeni istehsal müəssisələrinin təşkili, regionlarda sahibkarlara kömək məqsədilə müxtəlif servis mərkəzlərinin yaradılması, infrastrukturun qurulması, əhalinin işlə təmin edilməsi və digər tədbirlər aiddir".

---

[1] http:// www.cbar.az/

Məlumdur ki, regionlarda uzunmüddətli iqtisadi artımı və işgüzar fəallığı artırmaq, makroiqtisadi tarazlığı qorumaq, sağlam rəqabət mühiti yaratmaq üçün qeyd olunan tədbirlərin həyata keçirilməsi dövlətin malik olduğu maliyyə resurslarının hesabına baş verir.

Regionlarin sosial iqtisadi inkişafı ilə bağlı dövlət proqramının icrası dövründə sahibkarlığa dövlət dəstəyinin mühüm istiqamətlərindən biri də sahibkarların güzəştli kreditlərlə təmin edilməsi olmuşdur. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısının artırılması məqsədilə 2004-2008-ci illər ərzində İqtisadi İnkişaf Nazirliyi (indiki İqtisadiyyat Nazirliyi) nəzdində fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına ölkə üzrə 6991 sahibkarlıq subyektinə 323.4 milyon manat kredit verilmişdir. Fond tərəfindən 2011-ci ildə 1643 sahibkarlıq subyektinə 138 milyon manat güzəştli kredit verilmişdir ki, bunun 34 milyon manatını dövlət büdcəsindən ayrılan, 104 milyon manatı isə Fondun xəzinə hesabına daxil olan vəsaitlərdir. Ötən müddət ərzində sahibkarların maliyyə mənbələrinə çıxışının sadələşdirilməsi məqsədilə ölkənin müxtəlif bölgələrində 567 filial və 99 bank şöbəsi fəaliyyət göstərmişdir. Bank filiallarının 47 faizi, bank şöbələrinin isə 57 faizi regionların payına düşür[1].

Qeyd etmək lazımdır ki, Dövlət Proqramının Tədbirlər Planına Naxçıvan iqtisadi rayonu da daxildir. Bu plan üzrə Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli, Şərur rayonlarında iqtisadi islahatlar həyata keçirilmişdir və növbəti illərdə də keçirilməsi nəzərdə tutulmuşdur. Tədqiqat işinin əsas araşdırılma aspekti kimi Naxçıvan MR-nın iqtisadi inkişaf prosesi olmasını nəzərə alsaq, ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikada maliyyə və bank işinin təşkilinin öyrənilməsi, buradakı iqtisadi sahələrin canlanmasında onların rolunun hərtərəfli təhlili olduqca aktual məsələlərdəndir.

Maliyyə sistemi ölkə iqtisadiyyatının qan damar sistemi hesab olunmaqla, iqtisadi proseslərin tənzimlənməsi istiqamətində nühüm rola malikdir. Bugünədək müxtəlif alimlər tərəfindən bu sahədə xeyli araşdırmalar aparılmışdır. Ölkəmizin və xarici ölkələrin iqtisadçıları tərəfindən maliyyə, onun ünsürləri, funksiyaları, həlqələri, dövlət gəlir və xərclərinin bir-biri ilə uyğunluğu, büdcə siyasəti, banklar, kreditlər, eyni zamanda, regional iqtisadiyyat, sosial-iqtisadi inkişaf və s. kimi müxtəlif məsələlər dərindən öyrənilmişdir. Lakin hesab edirik ki, maliyyə-bank sistemi və regional iqtisadiyyatın bir-biri ilə qarşılıqlı öyrənilməsi istiqamətində araşdırmalar kifayət qədər

---

[1] http://anfes.gov.az/, http://www.azerbaijan-new.az/

deyil. Bu baxımdan bank və digər maliyyə resurslarının regional iqtisadiyyatdaki rolu, xüsusilə də bunun Naxçıvan MR timsalında öyrənilməsi gələcəkdə bu istiqamətdəki araşdırmalar üçün böyük töhvələr verəcəyini hesab edərək belə bir mövzuya müraciət olunmasını bu baxımdan xeyli səmərəli hesab edirik.

Muxtar respublikada gedən iqtisadi proseslərdə və həyata keçirilən islahatlarda bank kreditlərinin müstəsna əhəmiyyəti vardır. Ayrı-ayrı sahələrin, kənd təsərrüfatı, tikinti, sənaye sahələrinin maliyyə təminatının formalaşmasında kreditlər əvəzsiz rol oynayır. Təcrübə göstərir ki, iqtisadi prosesləri düzgün idarə etmək, hərtərəfli iqtisadi münasibətlərin formalaşdırmaq, resurslardan istifadə edilməsinin səmərəliliyini yüksəltməkdə maliyyə-kredit sistemi aparıcı yer tutur. Bu baxımdan düzgün maliyyə və büdcə siyasətinin aparılması, kredit üsullarının daha da təkmilləşdirilməsi zərurəti mövcuddur. Maliyyə və bank sahəsinin geniş, çoxşaxəli struktura malik olması, muxtar respublika iqtisadiyyatının gənc olması, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində düzgün maliyyə-kredit siyasətinin həyata keçirilməsi istiqamətlərinin təhlili zərurəti mövzunun aktuallığını bir daha təsdiq edir.

Beləliklə, qeyd olunmuş amillər mövcud tədqiqat işinin seçilməsini şərtləndirmiş, düzgün maliyyə-kredit siyasətinin həyata keçirilməsi istiqamətində araşdırmaların aparılmasına zərurət yaranması seçilmiş tədqiqat mövzusunun aktuallığını ortaya çıxaran əsas məsələlərdəndir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** Maliyyə və bank sistemi, onun formalaşması, maliyyə büdcə münasibətləri, büdcə sistemi, bank əməliyyatları, regional iqtisadiyyat, dövlətin sosial - iqtisadi siyasəti və s. məsələlər ətrafında ölkəmizin alimlərindən D.A.Bağırov, M.X.Həsənli, S.M.Məmmədov, Z.F.Məmmədov, Ş.E.Abdullayev, N.H.Əhmədov, İ.H.İbrahimov, Ə.Ə.Ələkbərov, N.A.Novruzov, B.A.Xankişiyev, Z.Ə.Səmədzadə, A.Ə.Əliyev, V.Z.Zeynalov, M.M.Sadiqov, E.M.Sadiqov, R.A.Bəşirov, M.M.Bağırov, M.M.Mahmudov, İ.M.Mahmudova, A.A.Nadirov, Ə.X.Nuriyev və başqaları tərəfindən geniş araşdırmalar aparılmışdır.

Maliyyə-bank sisteminin, eyni zamanda regional iqtisadiyyatın geniş, qlobal bir anlayış olduğunu qəbul etsək, bu sahələr üzrə həmdə beynəlxalq səviyyədə mühüm araşdırmalara rast gəlmək olar. Xarici ölkələrin alimlərindən Cihan Bulut, M.Arslan, Adem Çabuk, Mehmet Yazıcı, Bülent Dincer, Metin Özaslan, Белоглазова Г, Сурков М.С., Яремчук Н.В, Ray B. Westerfield, Dr. S.S. Kundu, M. Buckle, E. Beccalli və başqalarının bu mövzularda apardığı araşdırmalar mühüm əhəmiyyətə malikdir.

Lakin regionların sosial-iqtisadi inkişafında yüksək nəticələrə nail olmaq üçün maliyyə resurslardan düzgün və səmərəli istifadə edilməsi əsas şərtdir. Bu isə düzgün maliyyə, kredit və büdcə siyasətinin aparılmasından asılıdır. Regionlarda sosial-iqtisadi inkişaf və bu inkişafa hərtərəfli nail olmaq üçün maliyyə və bank sektorunun xidmətləri bügünədək ayrıca tədqiqat obyekti kimi ətraflı şəkildə işlənilməmişdir. Bu baxımdan regional inkişafda maliyyə və bank sisteminin rolu, quruluşu və digər adekvat problemlərlə bağlı kompleks araşdırmaların aparılmasına ehtiyac vardır ki, bu işlərin müstəqil bir iqtisadi rayon timsalında yerinə yetirmək dissertasiya mövzusunun aktuallığını şərtləndirən əsas amillərdəndir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Naxçıvan MR timsalında maliyyə və bank sisteminin fəaliyyətini öyrənmək, onun iqtisadi və sosial inkişafında rolunu müəyyənləşdirmək, həmçinin bu sistemin daha da təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir.

Müəyyən olunmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qoyulmuşdur:

- Regionlarda sosial-iqtisadi inkişafın təmin olunmasında dövlət maliyyəsi və bankların rolunun nəzəri konseptual əsaslarını öyrənmək;
- Sosial-iqtisadi inkişafın tərkib hissəsi kimi regional inkişafı araşdırmaq;
- Sosial-iqtisadi inkişafda dövlət maliyyəsi və bankların rolunun spesfik xüsusiyyətlərini və nəzəri xarakteristikasını öyrənmək;
- Dövlət maliyyəsinin Naxçıvan MR-nın iqtisadi inkişafinda rolu və əhəmiyyətini təhlil etmək;
- Muxtar respublikada fəaliyyət göstərən banklar və maliyyə-kredit təşkilatlarının fəaliyyətini, funksiyalarını araşdırmaq və onların muxtar respublikanın inkişafında rolunu qiymətləndirmək;
- Müstəqillik illərində Naxçıvan MR-da iqtisadi potensialın qiymətləndirilməsi və sosial-iqtisadi inkişafın xüsusiyyətlərinin araşdırılmasını aparmaq;
- Naxçıvan MR-da dövlət maliyyəsi və bank sisteminin inkişaf etdirilməsini iqtisadi yüksəlişin mühüm istiqaməti kimi təhlil etmək;
- Naxçıvan MR-da dövlət maliyyəsi və bank sisteminin təkmilləşdirilməsi yollarını işləyib hazırlamaq;
- Naxçıvan Muxtar Respublikasının maliyyə mərkəzinə transformasiyası və beynəlxalq iqtisadi aləmə inteqrasiya perspektivlərini öyrənmək;

- İqtisadi sahələr üzrə mövcud problemlərin araşdırılıb ortaya çıxarılması və həll olunma zərurətlərini qiymətləndirmək.

- İqtisadi fəaliyyətlərin həyata keçirilməsində ali qanunverici orqanın, hökumətin, nazirliklərin, eyni zamanda dövlət büdcəsinin iqtisadi proseslərdə səmərəliliyini və iştirak formalarını öyrənmək;

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti kimi Naxçıvan MR-nın timsalında regional inkişafa nail olunması üçün maliyyə və bank sisteminin rolunun təhlil olunması məsələləri, predmeti isə bu sistemin əsasını təşkil edən qanunların, dövlətdaxili iqtisadi siyasətin və sosial-iqtisadi proseslərin öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını maliyyə, bank, büdcə, sahibkarlıq, regional inkişafla bağlı yerli və xarici alimlərin əsərləri, elmi konsepsiyalar, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qanunlar və digər normativ-hüquqi sənədlər təşkil edir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işinin yazılmasında bir sıra mənbələrdən istifadə olunmuşdur. Bunlara kitablar və monoqrafiyalar ilə yanaşı, eyni zamanda Azərbaycan Respublikası Prezidentinin regionların inkişafı ilə bağlı təsdiq etdiyi Dövlət Proqramları, imzaladığı fərmanları, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qəzet və jurnallar, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Mərkəzi Bankının və onun Naxçıvan Muxtar Respublikası üzrə ərazi İdarəsinin statistik-hesabat materialları, uçot-hesabat sənədləri, digər qanunlar, statistik məcmuələr və internet saytları da daxildir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işi Naxçıvan MR-nın maliyyə və bank sisteminin regional iqtisadiyyata tətbiqi sahəsində aparılmış ilkin araşdırmalardandır. Bu mövzuda dövlət büdcəsi, sığorta sistemi, bank sistemi və digər maliyyə orqanları bir–biri ilə əlaqəli şəkildə öyrənilmişdir. Tədqiq olunan mövzunun elmi yeniliyi həmdə özünü onda göstərir ki, Naxçıvan MR-nın maliyyə və bank sistemindəki problemlər və perspektivlər hərtərəfli surətdə burada əks olunmuşdur. Aparılan tədqiqat və araşdırmalardan dissertasiya işindəki elmi yeniliklər bir sıra amillərlə özünü göstərir:

- Dissertasiya mövzusu müstəqillik illərində muxtar respublikada maliyyə-bank sistemi və regional inkişafın kompleks tədqiqi sahəsində xeyli mənbə və faktlara əsaslanan ilk elmi tədqiqatlardandır;
- Regionların sosial-iqtisadi inkişafın təmin olunmasında dövlət maliyyəsi və bankların rolunun tədqiq olunmasına nəzəri-konseptual fikirlər ifadə olunmuşdur;
- Sosial-iqtisadi inkişafın tərkib hissəsi kimi regional inkişaf araşdırılmışdır;
- Sosial-iqtisadi inkişafda dövlət maliyyəsi və bankların rolunun spesfik xüsusiyyətləri və nəzəri xarakteristikası öyrənilib elmi cəhətdən ümumiləşdirilmişdir;
- Naxçıvan MR-nın sosial-iqtisadi inkişafının təhlil olunmasında maliyyə və bank sisteminin rolu qiymətləndirilmişdir;
- Dövlət maliyyəsinin Naxçıvan MR-nın iqtisadi inkişafinda rolu və əhəmiyyəti məsələləri işlənilmişdir;
- Muxtar respublikada fəaliyyət göstərən banklar və maliyyə-kredit təşkilatlarının fəaliyyət mexanizmi, funksiyaları araşdırılmışdır;
- Müstəqillik illərində muxtar respublikada iqtisadi potensialın qiymətləndirilməsi və sosial-iqtisadi inkişafın xüsusiyyətləri təhlil edilmişdir;
- Naxçıvan MR-da dövlət maliyyəsi və bank sisteminin inkişaf etdirilməsi iqtisadi və sosial tərəqqinin mühüm istiqaməti kimi müəyyən edilmişdir;
- Naxçıvan Muxtar Respublikasının maliyyə mərkəzinə transformasiyası və beynəlxalq iqtisadi aləmə inteqrasiya perspektivləri öyrənilmişdir;
- İqtisadi sahələr üzrə mövcud problemlərin araşdırılıb ortaya çıxarılması və həll olunması zərurətlərinə yeni münasibətlər ifadə olunmuşdur;
- Naxçıvan MR-da dövlət maliyyəsi və bank sisteminin təkmilləşdirilməsi yolları göstərilmişdir;
- Naxçıvan MR-da bankların beynəlxalq banklar statusuna yiyələnməsi üçün yeni perspektivlər müəyyən olunmuşdur;
- Muxtar respublikada fəaliyyət göstərməyən kredit formalarının mövcud olma potensialı və inkişaf tendensiyaları göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində blokada şəraitində yaşayan Naxçıvan MR-ın maliyyə və bank sistemi, bu sahələrdə həyata keçirilmiş islahatlar, sosial-iqtisadi inkişaf və mövcud problemlər müəyyənləşdirilib təhlil olunur. Dissertasiya işinin fikir və müddəalarından regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi, banklar və maliyyə sisteminin təkmilləşdirilməsi və bu kimi məsələlərdən irəli gələn problemlərin həlli istiqamətində istifadə oluna bilər.

Dissertasiya işində aparılan elmi yanaşmalar, çıxarılan nəticələr və ümumiləşdirmələr gələcəkdə bu sahə üzrə aparılan yeni araşdırmalar üçün əsas ola bilər. Həmçinin, dissertasiya işinin nəticələri iqtisadi sahələr üzrə bakalavr və magistr dərəcəsi almaq istəyənlər üçün xeyli faydalı ola bilər.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işinin məzmunu, əsas müddəaları, praktik nəticələri və təklifləri müəllifin Azərbaycan Respublikasında və xarici ölkələrdə dərc etdirdiyi elmi məqalələrdə öz əksini tapmış, elmi-praktik konfranslarda məruzə edilib müzakirə olunmuşdur. Eyni zamanda dissertasiya işinin mühüm elmi nəticələri Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan MR İdarəsi (18.09.2017-ci il tarixli 01/296 saylı arayış) və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində (22.09.2017-ci il tarixli 01/500 saylı arayış) istifadə üçün qəbul edilmişdir.

**Dissertasiyanın həcmi və quruluşu.** Dissertasiya işi giriş, hər biri üç paraqrafdan ibarət üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi və vəzifələri, informasiya bazası, nəzəri-metodoloji əsasları, elmi yeniliyi və praktiki əhəmiyyəti şərh edilir, tədqiqat nəticələrinin sınaqdan keçirilməsi və istifadəsi barədə məlumat verilir.

Dissertasiyanın **"Regionların sosial-iqtisadi inkişafında dövlət maliyyəsi və bankların rolunun nəzəri konseptual əsasları"** adlı birinci fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Regional inkişaf sosial-iqtisadi inkişafın tərkib hissəsi kimi"** adlanır. Burada region anlayışı, regionlararası bərabərsizliklər, onların səbəbləri, regional inkişafda dünya ölkələrinin təcrübəsi, onların hazırlayıb həyata keçirdikləri strategiyalar, problem rayonların müəyyən edilməsi məsələləri təhlil edilmiş, eyni zamanda müxtəlif alimlərin elmi yanaşmalarına münasibət bildirilmişdir. Tədqiqat işinin umumi strukturuna əsaslanaraq, regional inkişaf üzrə araşdırma iki istiqamət - ölkə üzrə və Naxçıvan Muxtar Respublikası üzrə aparılmışdır. Tədqiqat göstərir ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra əsaslı iqtisadi siyasət və maliyyə mənbələri hesabına iqtisadiyyatın dirçəldilməsi qarşıya bir məqsəd kimi qoyulmuşdur. Mühüm neft strategiyaları ilə başlamış bu iqtisadi siyasət zaman geçdikcə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə və iqtisadiyyatın diversifikasiyasına yönəldilmişdir. Milli müstəqilliyimizin əldə edilməsinin ilkin

dövrlərindən başlayaraq isə, dövlətin iqtisadi qüdrətinin artırılması və iqtisadiyyatın bütün sahələrində hərtərəfli inkişafın əldə edilməsi istiqamətində ölkə rəhbərliyinin sərəncamlarına uyğun "Azərbaycanda Sahibkarlığın İnkişafı", "Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası", "Azərbaycan Respublikasının məşğulluq strategiyası", "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" və "Regionların sosial-iqtisadi inkişafı" ilə bağlı dövlət proqramları qarşıya qoyulmuş hədəflərə çatmaq yolunda uğurlu dövlət siyasəti hesab edilə bilər. Qəbul edilən müvafiq qanunlar və proqramlar həyata keçiriləcək olan dövlət siyasətinin əsas təlimatı kimi ölkəmizdə sosial-iqtisadi inkişafın tənzimlənməsinin və düzgün idarə olunmasının istiqamətlərini müəyyən etməklə, Azərbaycanın regionun lider ölkəsinə çevrilməsi yönündə uyğun zəmin hazırlamışdır. Xüsusi olaraq qeyd olunur ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı olan dövlət proqramları müvafiq illəri əhatə etməklə bir-birinin davamıdır, əsasən qeyri-neft sektorunu inkişaf etdirmək, iqtisadiyyatın diversifikasiyası və regionlarda mövcud olan problemlərin həll edilməsi məqsədini daşıyır. Ardıcıl olaraq qəbul edilən proqramların nəticələri müqayisə olunmaqla göstərilir ki, son illəri əhatə edən proqramda nəzərdə tutulan məsələlər əvvəlki illərdən fərqli olaraq, daha cox texnoloji, elmi-texniki tərəqqi istiqamətli və ölkənin İEÖ-lər səviyyəsinə yüksəlməsi yolunda prioritet addımları özündə birləşdirir. Qeyd eləmək lazımdır ki, regionlarda sürətli inkişafı şərtləndirən mühüm amillərə qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı əsassız yoxlamaların və yersiz müdaxilələrin aradan qaldırılması, yeni istehsal müəssisələrinin yaradılması, maliyyə vəsaitlərinin və bank resurslarının düzgün xərclənməsinin aparılması, mövcud müəssisələr və təsərrüfat subyektləri arasında istehsal əlaqələrinin genişləndirilməsi və ticarət yarmarkalarının yaradılması, güzəştli kreditlərin verilməsi, optimal vergi-gömrük siyasətinin müəyyən edilməsi və s. aiddir.

**"Regionların sosial-iqtisadi inkişafının təmin olunmasında dövlət maliyyəsinin rolunun spesfik xüsusiyyətləri"** adlanan ikinci yarımfəsildə maliyyə sistemi, ona daxil olan altsistemlər, bu altsistemlərin mühüm elementlərindən sayılan dövlət maliyyəsi, onun həlqələri, prinsip və funksiyaları, digər elmlərlə əlaqəsi, onun yaranmasına tarixi və müasir yanaşmalar, regionların iqtisadiyyatına verdiyi töhvələr və maliyyə məsələləri ilə bağlı müxtəlif alimlərin fikirləri təhlil edilir.

Dövlət maliyyəsi özündə ölkənin ümumi maliyyə sisteminin sxemasını təşkil etməklə əsas məqsədi ölkədə sosial inkişafının təmin olunmasına və sürətlənməsinə xidmət etməkdir. Belə ki, dövlət mövcud olduğu şəraitdə müxtəlif proseslərlə - təbii, siyasi, hərbi çətinliklərlə üzləşir ki, bütün bunlar zamanı üzərinə düşən əsas məsuliyyət ilk növbədə, maliyyə cəhətdən bu sahələrin və regionların təminatını sabit saxlamaqdır. Dövlət ilk öncə maliyyə siyasəti baxımından yaxşı tərtibatlı və məqsədli proqramlar hazırlayıb sonradan bu proqramların işləməsinə, onların necə həyata keçirilməsinə nəzarət edir. Bütün sahələrdə olduğu kimi, maliyyə sahəsində də görülən bütün işlər dərin zəhmətə və yüksək peşəkarlıqla təşkil olunmuş nümunəvi xidmət standartlarına əsaslanmalıdır.

Əsas hədəflərindən biri regionların sosial iqtisadi inkişafı məsələləri olan və bu məqsədə nail olmaq üçün dövlət maliyyəsinin həlqələrinin hər biri ictimai-iqtisadi proseslərə öz töhvələrini verir. Çünki regionların inkişafı üçün nəzərdə tutulmuş vəzifələrin icrası maliyyə resursları və ehtiyatları olmadan mümkün ola bilməz. Dövlət büdcəsi, yerli büdcələr, büdcədənkənar fondlar və digər maliyyə mənbələrindən iqtisadiyyatın müxtəlif sektorlarının inkişafı üçün yönəldilən vəsaitlər dövlət maliyyəsinin rolunun əhəmiyyətinin başa düşülməsinə imkan verir. Qeyd eləmək lazımdır ki, büdcə maliyyənin əsas tərkib hissələrindən biri olmaqla, dövlətin iqtisadi, siyasi, sosial və digər siyasətinin həyata keçirilməsində, bütün iqtisadi və sosial proqramlarla bağlı olan maliyyələşmə işlərinin yerinə yetirilməsi çərçivəsində xüsusi əhəmiyyətə malikdir. Nəzərdə tutulmuş dövlət siyasətinin yerinə yetirilməsində maliyyələşmə ilə bağlı məsələlər düzgün büdcə siyasətinin həyata keçirilməsindən asılıdır. Büdcə siyasətinin prioritet istiqamətlərindən biri Azərbaycan Respublikasının şəhərləri və rayonlarıdır. 2016-cı il üçün dövlət büdcəsində ölkəmizin şəhər və rayonları üzrə gəlirlər 6.602.000.000,0 manat, yerli xərclər 1.538.281.000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 5.730.624.457,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 774.905.457,0 manat məbləğində təsdiq edilmişdir[1].

Tədqiqat prosesində mühüm maliyyə həlqəsi kimi büdcədənkənar fondlar da təhlil olunmaqla onların məqsədləri, vəzifələri iqtisadiyyata verdiyi töhvələr izah edilir. Qeyd olunur ki, ölkəmizdə büdcədənkənar fondlar yeni formalaşma və inkişaf mərhələsini yaşayır. Onların əsas vəzifəsi regionlarda

---

[1] 2016-cı il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 20 oktyabr 2015-cü il, maddə 10, http://www.maliyye.gov.az

sahibkarlıq mühitinin formalaşdırılması, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, onun sağlamlığının qorunması, işsizlərə sosial müavinətlərin verilməsi və digər sosial xidmətlərin göstərilməsindən ibarət olub, çətin iqtisadi vəziyyət dövründə, bir növ dövlət büdcəsinə yardım etməklə vacib tədbirlərin maliyyələşdirilməsi, sosial yardım, pensiya təminatı və sosial infrastruktur məsələlərinin həyata keçirilməsinə köməklik göstərməkdir. Ölkəmizdə büdcədənkənar fondların sayı kifayət qədərdir. Lakin regional məsələlərin həll edilməsində onların ən mühümü Dövlət Sosial Müdafiə Fondu və Sahibkarlığa Kömək Milli Fondudur.

Eyni zamanda tədqiqat çərçivəsində dövlət krediti, sığorta, bələdiyyələrin maliyyəsi, müəssisələrin maliyyəsi, onların insan tələbatlarının təmin olunmasında, regionlarda sosial və iqtisadi fəaliyyətlərin tənzimlənməsində yerinə yetirdikləri funksiyaları şərh edilir.

Bu yarımfəsildə aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki:

- Digər elmlərlə sıx əlaqədə olması maliyyənin nə qədər geniş əhatəyə malik olmasını sübut edir və dövlətin iqtisadi müstəqilliyi, milli təhlükəsizliyi məsələləri onun sahib olduğu maliyyə resurslarından və dayanıqlı maliyyə sistemindən bilavasitə asılıdır;
- Dövlət maliyyəsi ölkənin sosial inkişafının təmin olunmasının və iqtisadi təhlükəsizliyinin əsas təminatçısıdır;
- Maliyyə sisteminin regionların inkişafındakı xidmətləri elə dövlətin maliyyə sabitliyinin qorunması deməkdir. Belə ki, sosial və iqtisadi inkişaf vergi və digər ödənişlərin büdcəyə artımını sürətləndirəcək ki, bu da büdcə kəsirinin hədsiz artımının qarşısını almaq deməkdir;
- Son illərin iqtisadi siyasətinin əsas aparıcı istiqamətini daha çox sosial müdafiə məsələləri, iqtisadi sağlamlaşdırma tədbirləri, sərt pul-kredit siyasətinin həyata keçirilməsi təşkil edir.

Birinci fəslin "**Regionların sosial-iqtisadi inkişafında bankların rolunun nəzəri xarakteristikası**" adlanan sonuncu yarımfəslində banklar, onların təsnifatı, prinsipləri, iqtisadi və sosial inkişafda həyata keçirdikləri xidmətlər, bank əməliyyatları və bank sistemi araşdırılır. Qeyd olunur ki, banklar cəmiyyətin iqtisadi inkişafında əvəzolunmaz xidmətlərə malikdir. Belə bir obrazlı müqayisə aparsaq, "necəki internet informasiya texnologiyasının son və mükəmməl nailiyyəti hesab olunur, eləcə də bankları iqtisadi sistemin ən mükəmməl və ehtiyac olunan sahəsi hesab edə bilərik".

Bank sisteminin inkişafına təsir edən amillərə iqtisadi münasibətlərin inkişaf səviyyəsi, ölkənin iqtisadi və siyasi şəraitində baş verən dəyişiklik-

lər, beynəlxalq maliyyə bazarlarında və ölkədəki valyuta maliyyə proseslərində baş verən dəyişikliklər, banklararası rəqabətin səviyyəsi və ölkədə aparılan maliyyə, büdcə - vergi siyasətini aid etmək olar[1]. Ölkəmizdə bank sistemi iki pillədən təşkil olunmaqla, bank fəaliyyəti bir-biri ilə əlaqədar, möhkəm bir sistem halında inkişaf edir və öz-özünü tənzimləyir. Bank sistemi Azərbaycan Respublikası maliyyə sisteminin əsas tərkib hissələrindən hesab olunur və son dövrlər aparılan araşdırmalardan aydın olur ki, bankların nüfuzu digər maliyyə vasitələrini daha da üstələmişdir. Regional inkişafda bankların rolu onların yerinə yetirdikləri xidmətlərdə öz əksini tapır. Kreditlərin verilməsi, nağdsız hesablaşmalar, köçürmə əməliyyatları, posterminal xidmətləri, Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinə vasitəçilik, lizinq əməliyyatları, telefon və internet bankçılıq bankların yerinə yetirdikləri ən mühüm xidmətlərdir.

2016-cı ilin sonuna daha yüksək reytinqə malik bankların bir neçəsi filiallar, şöbələr və bankomatların sayına görə qruplaşdırılmışdır:

Cədvəl 1

Bankların malik olduğu filiallar, şöbələr və bankomatların sayı

| Bankın adı | Filialın sayı | Şöbənin sayı | Bankomatların sayı |
|---|---|---|---|
| Kapitalbank | 91 | 7 | 518 |
| Accessbank | 40 | 0 | 40 |
| Beynəlxalqbank | 35 | 39 | 700+ |
| Paşabank | 2 | 4 | 21 |
| Xalqbank | 28 | 0 | 80 |
| Dəmirbank | 29 | 0 | 47 |
| ASB | 7 | 0 | 53 |
| Bank respublika | 25 | 1 | 56 |
| Unibank | 31 | 0 | 73 |
| Rabitəbank | 22 | 1 | 50 |

Qeyd: Dövri mətbuat və bankların internet səhifələrindən istifadə edilməklə müəllif tərəfindən tərtib edilmişdir.

2016-cı ilin sonuna ölkə üzrə kredit qoyuluşu üzrə ən yüksək göstərici Bakı şəhərinin payına düşür (84%). Bu onunla əlaqəlidir ki, Bakı şəhəri ölkəmizin əsas sənaye, xidmət, ticarət, istehsal müəssisələrinin əksəriyyətini özündə birləşdirir. Həmçinin, ölkə əhalisinin böyük bir qismi və banklar, onların filialları burada cəmləşibdir. Bakı şəhəri üzrə qəbul edilmiş proqramlar və hazırlanmış planlar bu tendensiyanın gələcək illərdə

[1] Bağırov M.M. Banklar və bank əməliyyatları. Bakı: Nurlan, 2003, 22 s.

də davam etməsini proqnozlaşdırır. Cədvəl 2-də 2016-cı ilin sonuna ölkə üzrə və ayrı-ayrı regionlar üzrə kredit qoyuluşu əks olunmuşdur.

Cədvəl 2

Regionlar üzrə kredit qoyuluşu, mln manat

| Regionların adı | Cəmi | Orta illik % | Qısamüddətli | | Uzunmüddətli | |
|---|---|---|---|---|---|---|
| | | | Milli valyutada | Xarici valyutada | Milli valyutada | Xarici valyutada |
| Azərbaycan | 13881995.4 | 11.3 | 1224603.4 | 1631881.5 | 6736315.1 | 4289195.4 |
| Bakı şəhəri | 11688206.3 | 9.9 | 1005645.7 | 1575079.3 | 5425123.2 | 3682358.1 |
| Abşeron | 464508.3 | 15.7 | 73118.5 | 13748.4 | 248983.8 | 128657.7 |
| Aran | 542045.0 | 21.9 | 44586.8 | 12591.6 | 317465.2 | 167401.4 |
| Dağlıq Şirvan | 78013.6 | 21.6 | 5379.1 | 1833.1 | 47762.9 | 23038.4 |
| Gəncə-Qazax | 467438.5 | 18.6 | 51095.8 | 19326.0 | 266219.9 | 130796.9 |
| Quba-Xaçm. | 161534.7 | 19.3 | 9981.0 | 1884.5 | 104631.2 | 45038.0 |
| Lənkəran | 191407.8 | 21.5 | 13947.3 | 3454.0 | 106703.3 | 67303.2 |
| Şəki-Zaqatala | 146457.4 | 21.3 | 15153.7 | 2172.4 | 89903.0 | 39228.2 |
| Yux.Qarabağ | 37597.5 | 16.9 | 1344.0 | 1672.3 | 30908.8 | 3672.4 |
| Kəlb.-Laçın | 1024.5 | 12.3 | 21.3 | 8.0 | 767.8 | 227.4 |
| Naxçıvan | 103761.8 | 9.0 | 4330.3 | 111.7 | 97846.1 | 1473.7 |

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı. http:// www.cbar.az

Cədvəldən göründüyü kimi verilmiş kreditlərin digər böyük bir qismi Abşeron, Gəncə-Qazax və Aran regionlarının payına düşür. Çünki bu bölgələr respublikamızın əsas müəssisə və təşkilatların cəmləşdiyi və kənd təsərrüfatı üzrə məhsul istehsalına görə seçilən bölgələrdir. Kreditlər üzrə ən aşağı faiz dərəcəsi Bakı və Naxçıvan şəhərlərində müşahidə olunur. Bakı şəhərində bunu rəqabətin çoxluğu ilə əlaqələndirmək olar. Naxçıvanda isə qəbul edilmiş dövlət proqramlarının səmərəli icrasını sürətləndirmək üçün bir neçə dəfə ardıcıl olaraq faizlər aşağı salınmışdır.

Lakin bütün bunlarla bərabər bankların regionlardakı fəaliyyəti ilə paytaxt şəhər və digər sənaye şəhərləri arasında fərqlər mövcuddur. Regionların iqtisadi inkişaf proqramlarının hazırlanmasına və həyata keçirilməsinə baxmayaraq, demək olar ki, Azərbaycanda regional banklar yoxdur. Regionlarda əsasən ya böyük bankların filialları, yada kiçik kredit təşkilatları fəaliyyət göstərir. Bütün bunlarla əlaqədar deyə bilərik ki, regionlarda bank fəaliyyəti ilə bağlı çoxlu irili-xırdalı nöqsanlar mövcuddur ki, bu problemlər içərisində əsas nəzərə çarpan nöqsan məhz kreditləşmə sahəsindədir. Statistik araşdırmalar onu göstərir ki, kreditləşmənin 80-90%-i Bakı və ətraf ərazilərə, qalanı isə regionların payına düşür. Buna səbəb kimi aparıcı sektorların (ticarət, tikinti, sənaye) regionlarda zəif inkişaf etməsi və əmlakların girov dəyərlərinin aşağı qiymətləndirilməsi göstərilə bilər.

Araşdırmalar göstərir ki, son illər ölkəmizin maliyyə sistemində gedən proseslər bank sektoruna da təsirsiz ötüşmədi. Bankların çoxu gözləmədiyi problemlərlə üzləşdi və öz öhdəliklərini yerinə yetirə bilmədi. Bu isə onlardan bəzilərinin bağlanmasına, bəzilərinin birləşməsinə səbəb oldu. Hal-hazırda ölkəmizdə 29 bank və 2 xarici bankın filialı (Pakistan və İran Mərkəzi banklarının Bakı filialı) fəaliyyət göstərir. Lakin bu rəqəm 2015-ci ildən qabaq 40-dan yuxarı idi.

Dissertasiyanın ikinci fəsli **"Naxçıvan MR-nın iqtisadi inkişafında maliyyə və bank sisteminin rolu:təhlil və qiymətləndirmə"** adlanır. **"Dövlət maliyyəsinin Naxçıvan MR-nın inkişafinda rolu və əhəmiyyəti"** adlı birinci yarımfəslində qeyd olunur ki, Naxçıvanın blokada şəraitində olması onun özünün müəyyən tabeçilik prinsipi əsasında maliyyə sisteminin formalaşmasını zəruri etmişdir və ölkə ərazisində mövcud nazirliklərin və komitələrin bölmələri burada yaradılmışdır. Məqsəd iqtisadi inkişafın və siyasi idarəetmənin geridə qalmaması, muxtar respublikanın başqa regionlarla müqayisədə əhali kütləsinin sabit saxlanılmasıdır. İqtisadi inkişafda roluna və funksiyalarına görə büdcə muxtar respublikanın həyatında son dərəcə əhəmiyyətli yer tutur. Qeyd olunmalıdır ki, muxtar respublikanın büdcəsinin çox az hissəsi öz gəlirləri hesabına formalaşır. Qalan xərclər isə dotasiyalar hesabına ödənilir.

Cədvəl 3

Naxçıvan MR-nın dövlət büdcəsinin göstəriciləri, illər üzrə manatla

| Naxçıvan MR-nın büdcəsi | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| Gəlirlər: | 66880000,0 | 69000000,0 | 69000000,0 | 71650000,0 |
| 1.Mərkəzləşdirilmiş gəlirlər | 47710000,0 | 48870000,0 | 47270000,0 | 49288000,0 |
| 2. Yerli gəlirlər | 19090000,0 | 20130000,0 | 21730000,0 | 22362000,0 |
| 3. Dotasiya | 283700000,0 | 297700000,0 | 282350000,0 | 278900000,0 |
| Xərclər | 350500000,0 | 366700000,0 | 351350000,0 | 350550000,0 |
| 1.Mərkəzləşdirilmiş xərclər | 263425905,0 | 276424400,0 | 254281000,0 | 326374000,0 |
| 2. Yerli xərclər | 87074095,0 | 90275600,0 | 97069000,0 | 24176000,0 |

Qeyd: Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Göründüyü kimi muxtar respublikanın büdcə gəlirlərinin böyük bir hissəsi (təxminən 80%-i) dotasiyaların hesabına formalaşır. Nəzərə alsaq ki, muxtar respublika blokada şəraitində yaşayır, mövcud çətinliklərin

aradan qaldırılması və iqtisadi layihələrin daha tez reallaşdırılması üçün dotasiyalar xüsusi əhəmiyyətə malikdir. Onu da qeyd edək ki, muxtar respublikanın özünün formalaşdırdığı büdcə gəlirləri ÜDM-da çox aşağı səviyyədədir. Bunu isə aradan qaldırmaq üçün bölgənin bütün sahələrdə ümumi inkişafına nail olmaq lazımdır ki, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Maliyyə sisteminin mühüm həlqələri olan sığorta sistemi və büdcədənkənar fondlar muxtar respublikada geniş təşəkkül tapmamışdır ki, buda ilk növbədə regionun blokada şəraitində olması və muxtar respublikada bu sahələrdə lazımi bazanın olmamasından irəli gəlir. Sığorta fəaliyyətinin Dövlət Baş Sığorta Agentliyi, onun yerlərdə (bütün rayonlarda mövcuddur) müvafiq şöbələri və "Naxçıvan Sığorta" adlı özəl sığorta agentliyi tərəfindən təşkil edilir. Büdcədənkənar fondlardan isə DSMF əsas fond kimi əhalinin sosial müdafiəsi, həyat səviyyəsinin yüksəldilməsi, işsiz əhalinin sosial müdafiəsi, sağlamlıq tədbirlərinin həyata keçirilməsi və digər sosial xidmətlərin təşkil edilməsi istiqamətində işləri həyata keçirir.

**"Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və maliyyə-kredit təşkilatlarının respublikanın inkişafında önəminin qiymətləndirilməsi"** adlı ikinci yarımfəsildə qeyd olunur ki, Naxçıvan MR-da bank sisteminin təşəkkül tapması 2000-ci illərdən başlayır və bugünkü günə qədər genişlənməkdə davam edir. Bank və bank mədəniyyətinin formalaşmasının ən yüksək dövrü 2005-2006-cı illərdən başlayır. Təhlillər onu deməyə imkan verir ki, muxtar respublikada banklar və onların göstərdikləri xidmətlər digər maliyyə qurumlarının həyata keçirdikləri işlərdən daha qabarıq nəzərə çarpır və böyük etibara malikdir. Burada elə bir insan tapmaq olmaz ki, onun bank fəaliyyəti və bankların rolu haqqında heç bir təsəvvürü olmasın. Muxtar respublikanın bank sisteminin fəaliyyəti Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan MR İdarəsinin nəzarəti altında təşkil edilir. Hər hansı bir əməliyyat və ya öhdəliyin həyata keçirilməsində konkret olaraq ixtisaslaşmış və ya inhisarlaşmış bank yoxdur. Bank əməliyyatların aparılmasında, və kreditlərin verilməsində demək olar ki, bütün banklar və onların filialları məşğul olurlar.

2016-cı ilin sonuna olan məlumatda Naxçıvan MR-da Mərkəzi Bank və filiallarla birlikdə 15 bank, 1 bank şöbəsi, 2 kredit təşkilatı və 4 kredit ittifaqı fəaliyyət göstərir. Banklar kredit, köçürmə, vasitəçilik, posterminal və digər mühüm xidmətləri burada həyata keçirirlər.

Kreditləşmədə kənd təsərrüfatı xüsusi olaraq diqqət mərkəzində saxlanılır. Çünki qəbul edilmiş dövlət proqramlarına müvafiq olaraq burada

da tədbirlər həyata keçirilir. Əsas məsələ daxili bazarın tələbatını ödəməkdən ibarətdir. Heyvandarlıq və taxılçılıq sahələrinin inkişafının davamlı dəstəklənməsi, iribuynuzlu və xırdabuynuzlu heyvandarlığın sayının artırılması, ət-süd məhsulları istehsalının yüksəldilməsi, taxılçılıq üçün əkinlərin aparılması, və digər tədbirlər üçün bank kreditlərinə ehtiyac vardır. Banklar bu istiqamətlərdə fermerlərin, sahibkarların və fiziki şəxslərin müraciət etdiyi ən etibarlı və müasir mənbələrdir.

Eyni zamanda araşdırmalar göstərir ki, makroiqtisadi inkişafın təsiri ilə əlaqədar bankların fəaliyyətlərinin artım mexanizminə uyğun olaraq, vətəndaşların kredit kartlarının sayında artım müşahidə olunmuşdur. 2010-2016-cı illər ərzində ödəmə kartlarının sayında iki dəfədən çox bir artım baş vermişdir[1]. Buna paralel olaraq isə, kartlarla bağlı digər xidmətlərin (posterminal, bankomat, valyuta şöbələri və s.) daha da genişlənməsinə şərait yaranmışdır. Muxtar respublikada Mərkəzi Bank, Rabitəbankın Naxçıvan şöbəsi və bank olmayan kredit təşkilatlarını çıxmaq şərtilə digər bankların hamısı bankomat xidmətini göstərir. Ən çox bankomatları olan banklara Kapital Bank ASC, Beynəlxalq Bank ASC və Naxçıvan Bank ASC misal göstərmək olar.

Aparılmış təhlillərdən bu qənaətə gəlmək olar ki, yerinə yetirdikləri funksiyalardan asılı olaraq xeyli sayda bank əməliyyatlarının aparılması ilə muxtar respublikada bütün banklar və filialları məşğul olurlar. Banklar və kredit təşkilatları sistem halında fəaliyyət göstərməklə fərqli əməliyyatların icrası zamanı bank sistemində tarazlığı qoruyurlar. Hal-hazırda dövlət proqramlarına uyğun bankların üzərinə böyük öhdəliklər düşür. Onlar iqtisadiyyatın bütün sahələrinə xidmət etməklə tərəflər arasında düzgün bazar münasibətlərinin qurulması üçün müəyyən öhdəçilik daşıyırlar.

Üçüncü yarımfəsil **"Müstəqillik illərində Naxçıvan MR-da iqtisadi potensialın qiymətləndirilməsi və sosial-iqtisadi inkişafın xüsusiyyətləri"**ndən bəhs edir. Qeyd olunur ki, Naxçıvanda gedən bütün proseslər hər şeydən öncə muxtar respublikanın blokada şəraitində olması ilə sıx bağlıdır. Coğrafi baxımdan Azərbaycandan təcrid olunmuş Naxçıvan MR mürəkkəb şəraitdə olmasına və bütün çətinliklərə baxmayaraq, iqtisadi inkişafı qarşısına bir məqsəd kimi qoymuşdur. Ölkəmiz müstəqilliyini əldə etdikdən sonra onun siyasi, iqtisadi həyatında hərtərəfli inkişaf, bu illər ərzində ölkəmizin qazandığı bütün iqtisadi nailiyyətlər muxtar respublikanın da inkişafına sirayət etmişdir. Muxtar respublikada kənd təsərrüfatı, sənayenin strukturunu

---

[1] http://www.cbar.nakhchivan.az/

möhkəmləndirmək, məşğulluq səviyyəsini yüksəltmək, əhalinin təhsil, səhiyyə və başqa sosial tələbatlarını yaxşılaşdırmaq üçün muxtar respublika Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq olunmuş, müvafiq illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı" ardıcıl Dövlət Proqramları, "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" qəbul edilmişdir. Tədqiqatın bu bölməsində aparılan araşdırmalardan belə nəticələrə gəlmək olar ki, dövlət müstəqilliyimizin bərpasından keçən dövr ərzində Naxçıvan MR-nın iqtisadi həyatında mühüm inkişaf tendensiyaları ortaya çıxmışdır:

1) Naxçıvanın qonşu dövlətlərlə hərtərəfli əlaqələrində canlanmalar müşahidə olunmaqdadır (Ermənistanı çıxmaq şərtilə);

2) Xarici əlaqələrin inkişaf etməsi bölgəyə gələn turistlərin sayının artmasına, xarici ölkələrdən buraya sənaye məhsullarının, texnika və avadanlıqlarının gətirilməsinə müsbət təsir göstərmişdir;

3) Regionların sosial-iqtisadi dövlət proqramları Ali Məclis Sədrinin müvafiq fərman və sərəncamları ilə burada da uğurla icra olunmaqdadır;

4) Muxtar respublikanın müstəqillik illərində qazandığı inkişaf onun siyasi və iqtisadi təhlükəsizliyinin başlıca şərtidir;

5) Azad rəqabət prosesi, özəlləşdirmə, sahibkarlığın inkişafı, qeyri-neft sektorunun inkişafına ayrılan diqqət, elm və texnoloji imkanların genişlənməsi müstəqillik illərində sənaye, kənd təsərrüfatı, bank sektoru və xarici ticarət dövriyyəsinin həcminin artmasına böyük təkan vermişdir.

Dissertasiya işinin sonuncu fəsli "**Naxçıvan MR-da dövlət maliyyəsi və bank sisteminin inkişaf perspektivləri və təkmilləşdirilməsi yolları"** adlanır. **"Naxçıvan MR-da maliyyə və bank sisteminin inkişaf etdirilməsi iqtisadi yüksəlişin mühüm istiqaməti kimi"** adlanan birinci yarımfəsildə göstərilir ki, maliyyə təşkilatlarının və bankların fəaliyyətinin gücləndirilməsi muxtar respublika iqtisadiyyatının genişlənməsində yeni imkanlar yaradacaqdır. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ilə əlaqədar, digər regionlarda olduğu kimi muxtar respublikada da bu proqramlara uyğun işlər aparılır. Müxtəlif cür təsərrüfat subyektlərinin yaranması və genişlənməsi ilə əlaqədar, maddi vəsaitlərə daha da çox ehtiyac duyulması bölgələrdə yeni-yeni bank filiallarının yaradılması məsələsini

gündəmə gətirir. Yeni yaradılan bank filiallarının əsas məqsədi bölgələrdə və kəndlərdə sahibkarlıq fəaliyyətini canlandırmaq üçün güzəştli şərtlərlə mikrokreditlərin verilməsini təmin etməkdir. Naxçıvanbank ASC-nin Culfa, Şərur və Naxçıvan şəhərlərində fəaliyyətə başlayan filialları əhalinin və sahibkarların pul vəsaitləri ilə təmin olunması istiqamətində xüsusi əhəmiyyət daşıyır. Qeyd etmək lazımdır ki, muxtar respublikada ilk dəfə olaraq banklar tərəfindən verilən kreditlərin faiz dərəcələri 2014-cü ildə aşağı salınmışdır (15%) və 2016-cı il 01 dekabr tarixinə Naxçıvan Bank Açıq Səhmdar Cəmiyyəti tərəfindən kənd təsərrüfatı üzrə (heyvandarlıq istisna olmaqla) verilən kreditlər üzrə faiz dərəcələri 13 %-dək endirilmişdir. Bunlarla yanaşı, statistik məlumatlarına nəzər salanda görmək olar ki, daşınmaz əmlak bazarında göstəricilər əvvəlki illərə nisbətən xeyli yüksəlmişdir. Belə ki, 2010-cu il üçün bu sahə üzrə ayrılmış kreditlər 200.000 manat olmuşdursa, 2013-cü il yanvar-dekabr ayları ərzində bu göstərici 900.000 manatı keçmişdir. Bu rəqəm 2016-cı ildə 2.078.000 min manat olmuşdur[1]. İpoteka sahəsində görülən işləri nəzərə alsaq, gələcəkdə bu sahəyə ayrılan kreditlərin həcmində artım gözlənilir. Eyni zamanda 07 noyabr 2016-cı ildə Naxçıvan İpoteka Fondunun təsis edilməsi vətəndaşların uzunmüddətli ipoteka yolu ilə mənzillərlə təmin olunmasında böyük rol oynayacaqdır.

Valyuta, qiymətli kağızlar və sığorta bazarının peşəkar iştirakçılarının formalaşdırılması, bank xidmət növlərinin artırılması, qloballaşma prosesinin bank sisteminin inkişafına təsiri amillərinin öyrənilməsi, ancaq kənd təsərrüfatı üçün uyğun bank və ya kredit qurumunun təsis edilməsi iqtisadiyyatın fəaliyyət istiqamətlərində istehsalın genişlənməsinə və effektliyinin artırılmasında yeni istiqamətlər müəyyən edəcəkdir.

**“Naxçıvan MR-da dövlət maliyyəsi və bank sisteminin təkmilləşdirilməsi yolları”** adlanan ikinci yarımfəsildə qeyd olunur ki, maliyyə sisteminin düzgün formalaşdırılması onun əsas hissəsini təşkil edən və milli iqtisadiyyatın maraqlarına xidmət göstərən bank-kredit sisteminin təşəkkül tapması ilə mümkündür. Dünya təcrübəsinə və iqtisadi fikirlərə əsaslanıb onu deyə bilərik ki, maliyyə və bank sisteminin təkmilləşdirilməsi üçün ilk öncə dövlət mexanizmi ilə bazar mexanizmi düzgün əlaqələndirilməlidir. Muxtar respublikanın maliyyə sisteminin gənc

---

[1] Bank statistik bülleten 12/2013. Mərkəzi Bankın Naxçıvan MR idarəsi. Naxçıvan, 2013, s. 15. Bank statistik bülleten 12/2016. Mərkəzi Bank Naxçıvan MR idarəsi. Naxçıvan, 2016, s . 15.

olmasını nəzərə alsaq, onun formalaşmasını dövlət mexanizmi olmadan mümkün hesab etmək olmaz.

Tədqiqat prosesində göstərilir ki, elə kredit formaları var ki, muxtar respublikada onlara rast gəlinmir və elə sahələr vardır ki, ümumiyyətlə kreditləşdirilmir və ya məhdudiyyətlər mövcuddur. Eyni zamanda qeyd olunur ki, yeni iqtisadi şəraitdə sığorta sistemi muxtar respublika maliyyə sisteminin gənc və əsas ünsürlərindən hesab olunur. Sığorta fəaliyyətinin əsas göstəriciləri aşağıdakı cədvəldə xarakterizə olunur.

Cədvəl 4.

Naxçıvan Muxtar Respublikası üzrə sığorta göstəriciləri
(min manat)

| İllər / Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Sığorta daxilolmaları-Cəmi | 1455,4 | 2259,8 | 4859,2 | 5293,3 | 5973,6 | 6075,8 |
| O cümlədən | | | | | | |
| Könüllü sığorta | 670,7 | 1013,7 | 1305 | 1294,9 | 1248,7 | 1165,3 |
| İcbari sığorta | 784,7 | 1246,1 | 3554,2 | 3998,4 | 4724,9 | 4910,5 |
| Sığorta ödəmələri-Cəmi | 1147,1 | 1333,6 | 2276,6 | 2972,4 | 3549,2 | 4621 |
| O cümlədən | | | | | | |
| Könüllü sığorta | 1146,3 | 1310,4 | 1928,8 | 938,8 | 865,5 | 771,8 |
| İcbari sığorta | 0,8 | 23,2 | 347,8 | 2033,6 | 2683,7 | 3849,2 |

Mənbə: Naxçıvan MR DSK. http://www.statistika.nmr.az

İstər sığorta daxilolmalarında istərsə də, sığorta ödəmələrinin həcmində ilbəil yüksəliş nəzərə çarpır. 2010-cu il və 2015-ci ili müqayisə etdikdə, sığorta daxilolmalarında 4 dəfədən çox bir artımı (təxminən 317 %) müşahidə edə bilərik. Hesab olunur ki, əgər sığorta sahəsində maarifləndirmə təlimləri gücləndirilirsə, onun qarşısında duran problemləri asanlıqla həll etmək olar.

Təhlillərdən belə nəticə çıxarmaq olar ki, muxtar respublikada maliyyə sisteminin təkmilləşdirilməsi istiqamətində aşağıdakı perspektivlər mövcuddur:

-yeni məhsul və xidmətlərin hazırlanıb təklif olunması;

-banklar tərəfindən çoxşaxəli xidmətlərin təklif olunmasına baxmayaraq, bəzi sahələr üzrə hər hansı məhsul və xidmət olmasa da gələcəkdə inkişaf etdirilməsi üçün yeni kreditlərin verilməsi üçün zərurət

və imkanlar mövcuddur (təhsil, lombard kreditlər, islam bankçılığı və s);

-muxtar respublikada bankların hamısının filial olmasını nəzərə alaraq, mövcud perspektivlərin Naxçıvanbank ASC timsalında həyata keçirilməsi daha məqsədəuyğun hesab olunur;

**"Naxçıvanın maliyyə mərkəzinə transformasiyası perspektivləri"** adlı üçüncü yarımfəsildə ilk öncə maliyyə mərkəzlərinin formalaşması üçün dünya ölkələrinin xüsusiyyətləri və alimlərin yanaşmaları təhlil edilir. Naxçıvan MR-nın blokada şəraitində yerləşməsi, bank və maliyyə sisteminin gənc olması və qiymətli kağızlar bazarının zəif inkişaf etməsi muxtar respublikanın maliyyə perspektivləri qarşısında duran ən mühüm çətinliklər hesab eləmək olar. Məhdud imkanlara baxmayaraq, muxtar respublikada maliyyə potensialının inkişaf etdirilməsi üçün geniş perspektivlər vardır. Naxçıvan MR-nın mühüm ticarət və nəqliyyat qovşaqlarının üzərində yerləşməsi, eyni zamanda Şərqdən Qərbə Böyük İpək Yolunun Naxçıvandan keçməsi, qonşu dövlətlər ərazisində siyasi və iqtisadi təhlükənin yaranması ilə əlaqədar Naxçıvan MR-nın iqtisadi maraq mərkəzinə çevrilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, mövcud turizm potensialı, bank sisteminin son illər ərzində sürətli inkişafı və başqa digər sosial və kommersiya məqsədli işlərin həyata keçirilməsi ilə əlaqədar əlverişli investisiya mühitinin formalaşması muxtar respublikanın kiçik də olsa maliyyə mərkəzinə çevrilməsini şərtləndirən əsas amillərdir. Eyni zamanda qeyd olunur ki, bu imkanlar və perspektivlərlə yanaşı, muxtar respublikadakı biznes-tədris mərkəzləri, universitetlər və Naxçıvanbank ASC-nin üzərinə böyük vəzifələr düşür.

Bu yarımfəsildə aparılan təhlillərdən belə nəticələrə gəlmək olar ki:

- Qiymətli kağızlar və valyuta bazarının zəif inkişafı, yeni qurulmuş bank sistemi, blokada şəraitində olması muxtar respublikanın maliyyə perspektivləri baxımından başlıca maneələr olub, maliyyə mərkəzlərinə yaxın yerləşməsi və əlverişli investisiya mühiti muxtar respublika üçün müsbət amil kimi qiymətləndirilməlidir;

- Muxtar respublikada iri maliyyə institutları, bank və broker şirkətləri, fond birjaları və s. bunlar kimi nəhəng qurumlar yaratmaq inandırıcı görünməsə də, digər sahələr üçün məsələn maliyyə bazarlarının təşkil olunması, əlverişli investisiya mühitinin yaradılması və gəlirlərin artırılması üçün yaxşı imkanlar vardır;

- Maliyyə mərkəzinə çevrilməsi üçün milli maliyyə bazarı inkişaf etdirilməli, beynəlxalq maliyyə bazarına inteqrasiya sürətləndirilməli, müstəqil pul vəsaitləri bir yerə cəm olunmalı, bankçılığın beynəlmilləşməsi və müasir bank xidmətlərinin artması baş verməli, istehsalın inkişaf sürəti

və effektivliyi artırılmalıdır;

- Həyat səviyyəsinin yüksəlməsi və iqtisadi inkişafın sürətlənməsi regionda maliyyə imkanlarının yaranmasını şərtləndirən başlıca amillərdir;

- Elektron birja ticarətinin təşkili və universitetlərin lazım olan tədbirləri həyata keçirməsi muxtar respublikanın maliyyə mərkəzi kimi formalaşmasının əsas istiqamətləri hesab edilə bilər.

Dissertasiyanın **Nəticə** hissəsində aparılan tədqiqatın yekunları təqdim edilmiş və tədqiqatın tələbindən doğan aşağıdakı **təkliflər** hazırlanmışdır:

-əlverişli sahibkarlıq mühiti qurmaq üçün mövcud qanunlardan, fərman və sərəncamlardan, normativ hüquqi aktlardan informasiyalar sahibkarlara çatdırılmalı, onların hüquqi cəhətdən maarifləndirilməsi, xarici iş adamları ilə görüşlərin keçirilməsi istiqamətində ciddi tədbirlər görülməlidir;

- Sosial-iqtisadi inkişaf ilə bağlı dövlət proqramlarının, iqtisadi inkişafın təmin olunması istiqamətində səmərəli dövlət siyasətinin həyata keçirilməsi üçün bölgələrdə sahibkarlar üçün məsləhət xidməti, marketinq xidməti, informasiya təminatı və s. üçün xidmət mərkəzlərinin yaradılması vacibdir;

-Pul-kredit siyasətinin həyata keçirilməsində bütün mövcud nöqsanlar aradan qaldırılmalıdır;

-Daxili bazarı qorumaq üçün yeni sahələr yaratmaq, təhsil və istehsalın səviyyəsinin yüksəldilməsi üçün yeni kredit növlərini təklif etmək;

-Bank sisteminə stimul verəcək amillərdən biri bank faizlərinin aşağı salınmasıdır. Ümumi götürüldükdə bank faizləri ölkəmizdə yüksəkdir. Muxtar respublikada orta bank faizləri 22-24% təşkil edir. Lakin Naxçıvan bank ASC–nin müştərilərə təklif etdiyi kənd təsərrüfatı kreditlərinin faiz dərəcələri 13 % təşkil edir. Hesab edirəm ki, digər banklar da bu istiqamətdə fəaliyyətini gücləndirərsə, bu həm əhalinin sosial vəziyyətinin yaxşılaşmasına, həm də iqtisadiyyatın daha da güclənməsinə təkan verəcəkdir;

-Kreditlər vaxtlı-vaxtında monitorinq olunmalıdır;

-Sosial reklam xidmətlərinin muxtar respublikada səmərəli təşkilinin aparılması. Heç bir kommersiya marağı olmayan bu reklam növü əhali və dövlət arasında qırılmaz əlaqələrin yaranmasına gətirib çıxara bilər;

-İqtisadi sahələr üzrə məsləhət-maarif xidmət obyektləri yaradılmalı, universitetlərdə "Reklamçılıq", "İslam bankçılığı", "Lizinq" ayrıca fənlər kimi tədris olunmalıdır;

-Dövlət orqanları ilə bank təşkilatlarının birgə tədbir keçirməsi;

-Bank sistemində baş verən yeniliklərin kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə təbliğinin aparılması;

-Beynəlxalq maliyyə institutları və bankçılıq orqanları ilə əməkdaşlığın həyata keçirilməsi, bank və maliyyə sahəsində beynəlxalq konfransların və tədbirlərin Naxçıvan Muxtar Respublikasında təşkil edilməsi;

-Ölkəmizin və xarici ölkələrin tanınmış bankirlərini, iqtisadçı ekspertlərini və maliyyəçilərini muxtar respublikaya dəvət edib, onlarla fikir mübadiləsi aparmaq və s.

**Dissertasiya işinin əsas müddəaları müəllifin dərc olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Regionların sosial-iqtisadi inkişafında dövlət maliyyəsinin rolunun nəzəri konseptual əsasları // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2015, № 1, cild:11, s. 290-295.
2. Naxçıvanın maliyyə mərkəzinə transformasiyası perspektivləri // Kənd Təsərrüfatı Nazirliyi. Azərbaycan Aqrar Elmi jurnalı, Bakı, 2015, № 1, s. 127-130.
3. Naxçıvan MR-da fəaliyyət göstərən banklar və maliyyə-kredit təşkilatlarının respublikanın inkişafında önəminin qiymətləndirilməsi // Azərbaycan Universiteti. İpək yolu jurnalı, Bakı, 2014, №3, s.54-59.
4. Государственные финансы в Нахчыванской Автономной Республике и пути усовершенствования банковской системы // Алтайского Государственного Аграрного Университета. Барнаул, 2016, № 1(135), стр.191-194.
5. Kənd təsərrüfatının maliyyə təminatında bank sektorunun xidmətləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2016, № 3, cild:12, s. 342-347.
6. Regional inkişaf sosial-iqtisadi inkişafın tərkib hissəsi kimi // Azərbaycan Kooperasiya Universiteti. Kooperasiya jurnalı, Bakı, 2017, №3 (44), s.17-24.
7. Naxçıvan MR-nın dövlət maliyyəsinin respublikanın inkişafında rolu və əhəmiyyəti // Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya jurnalı, Bakı, 2015, №1 (36), s.11-15
8. İslam maliyyə və bank sisteminin Azərbaycanda tətbiq edilmə zərurətlərinin təhlil olunması / Azərbaycanşünaslığın aktual problemləri, VI Beynəlxalq Elmi Konfrans, Bakı: BSU, 2015, II hissə, s. 8-9.
9. Naxçıvan MR-da müasir bank xidmətlərinin iqtisadi münasibətlərin formalaşdırılması zərurəti baxımından aktuallığı. AMEA Naxçıvan bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2017, №3, cild:13, s. 325-330.

**Eltun Yulat oglu Ibrahimov**

## The role of finance and banking system in the regional economic development guaranty (in the example of Nakhchivan AR)

### Summary

The research work is dedicated to the analysis issues of finance and banking system in the field of socio-economic development. Containing significant actual problems the dissertatian aims to study finance and banking system and identify its activity in socio-economic progress.

The research work consists of introduction, 3 chapters, conclusion and bibliography. The actuality of topic, the degree of the research, goals and objectives, scientific novelty, empirical and practical importance, object and subject are illuminated in the introduction part.

The first chapter analyzes the theoretical-methodological bases of finance and banking system in the regional economic growth guaranty nowadays, international experience in regional development, as well as fulfillment mechanism and results of state programs on socio-economic development in our country. It is particularly noted the interregional existing disparities must absolutely be removed to gain the whole progress of the country that attendant state programs are vital for this purpose.

The second chapter with appropriate paragraphs summarizes the finance and banking system of NAR, its contributions to economy, autonomous republic`s budget, number of banks and their services, autonomous republic`s growth in independence years.

The third chapter of dissertation work deals with the available perspectives to improve finance system, the development of finance-banking system to create opportunities in economy, the challanges and chances to transform autonomous republic to a financial center.

The author reflects the main results of the research findings and suggests concrete proposals in the conclusion.

**Элтун Юлет оглы Ибрагимов**

## Роль финансовой и банковской системы в обеспечении регионального экономического развития (на примере Нахчыванской АР)

### Резюме

Диссертационная работа посвящена исследованию финансовой и банковской системы в контексте социально-экономического развития. Целью диссертационной работы является изучение финансовой и банковской системы Нахчыванской Автономной Республики и определение ее роли в социально-экономическом развитии.

Исследовательская работа состоит из введения, трех глав, выводов и списка использованной литературы. Во введении обоснована актуальность темы, указана степень ее изученности, цель и задачи, научная новизна и практическая ценность, объект и предмет исследования.

В первой главе диссертации изучаются теоретико-методологические особенности обеспечения регионального развития с помощью финансовой и банковской системы, мировой опыт регионального развития, в тоже время, проводятся исследования механизма исполнения государственных программ по социально-экономическому развитию нашей страны и по подведению итогов. Здесь особо подчеркивается, что для развития страны необходимо устранить межрегиональное неравенство, здесь важная роль отводится государственным программам.

В соответствующих параграфах второй главы исследуется финансовая и банковская система автономной республики, проводится их экономическая оценка, бюджет автономной республики, количество банков и предоставляемые услуги вкратце характеризуют развитие автономной республики в годы независимости.

В третьей главе говорится о существующих перспективах совершенствования финансовой системы Нахчыванской АР, о возможностях развития финансово-банковской системы, а также о трудностях и перспективах на пути превращения АР в финансовый центр.

В заключительной части работы даны выводы и рекомендации, сформированные в результате проведенного исследования.

Çapa imzalanmışdır: 25.09.2017
Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 1,4
Sifariş: 103
Tiraj 100

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap edilmişdir.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**ЭЛТУН ЮЛЕТ оглы ИБРАГИМОВ**

# РОЛЬ ФИНАНСОВОЙ И БАНКОВСКОЙ СИСТЕМЫ В ОБЕСПЕЧЕНИИ РЕГИОНАЛЬНОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ (НА ПРИМЕРЕ НАХЧЫВАНСКОЙ АР)

**Специальность: 5311.01 – Организация и управление предприятиями**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени доктора философии по экономике**

**НАХЧЫВАН – 2017**